# Xalq artisti Rafiq Əzimovun 80 illik yubileyinə həsr edilmiş tədbir

❒ ***Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Mərdəkan Mədəniyyət Sarayında Xalq artisti Rafiq Əzimovun 80 illik yubileyinə həsr edilmiş tədbir keçirilib. Baş idarədən bildiriblər ki, tədbirdə Xalq artistləri Nurəddin Mehdixanlı, Hacı İsmayılov, Məleykə Əsədova, Əməkdar artist Elşən Rüstəmov, tarix elmləri doktoru, professor Təvəkkül Səlimov və başqaları iştirak ediblər.***



Öncə sarayın foyesində aktyorun çəkildiyi rolları əks etdirən fotosərgiyə baxış keçirilib. Tədbirin aparıcısı aktyorun həyat və yaradıcılığı haqqında geniş məlumat verdikdən sonra Rafiq Əzimov səhnəyə dəvət olunub. O, tədbirin təşkilatçılarına və tamaşaçılara minnətdarlığını bildirib və bu sarayda onun yublleyinin belə yüksək səviyyədə keçirildiyinə görə qürur duyduğunu söyləyib. R.Əzimov Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin diplomu ilə təltif olunub.

Daha sonra aktyorun sənət dostları çıxış edərək, görkəmli sənətkarın həm teatr, həm də televiziya tamaşalarındakı rollarından danışıblar. Bildirilib ki o, səhnədə yaratdığı obrazlarla yanaşı, kino sahəsində də böyük uğurlar qazanıb.

Tədbirdə aktyorun ifa etdiyi “Yeddi oğul istərəm”, “Axırıncı aşırım”, “Göz həkimi”, “Buta” filmlərindən fraqmentlər nümayiş olunub. Populyar müğənnilərin ifaları tamaşaçılarda xoş ovqat yaradıb.

Sonda Xalq artisti Rafiq Əzimovun iştirakı ilə xorvat dramaturqu Miro Qabranin pyesi əsasında səhnələşdirilmiş “Qəribə, qəribə, çox qəribə əhvalat” tamaşasının təqdimatı olub.

Qeyd edək ki, tamaşanın bədii rəhbəri Akademik Milli Dram Teatrının direktoru, Xalq artisti Azər Paşa Nemətov, quruluşçu rejissoru Əlif Cahangirlidir.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***